lər.

Rasim müəllimlə tanışlığım, filmdəki qısa rolum mənim yaddaşıma necə həkk olunubsa, belə hesab edirəm ki, filmdə rejissor məhz Rasim Ocaqov kimi işləməlidir. Yəni qısa desək, rejissor işini dəqiq bilməlidir. Rejissor nə istədiyini izah edə bilməyəndə onunla işləmək çox çətin olur.

Mənim üçün hər rejissorla iş prinsipi fərqli və maraqlı olub. Misal üçün, Rasim Ocaqov çox mülayim insan idi. Bizim Rasim müəllimlə yaş etibarı ilə də fərqimiz çox olduğundan o, mənə gənc insana qarşı olan münasibətdə ustadcasına, çox böyük mərhəmət göstərərək münasibət göstərirdi. Daha sonra bir neçə yaşlı nəsil rejissorları ilə işləmişəm. Son zamanlar çalışdığım rejissorlar isə yaş baxımından məndən gəncdirlər. Misal üçün, sonuncu işlədiyim rejissor məndən xeyli gənc olsa da, mənimlə bir aktrisa kimi çox müdrikcəsinə və mehriban davranırdı.

Bilirsiniz, aktyor səhnədə, çəkiliş meydanında uşaq kimi kövrək olur. O, iltifatı sevir, danlağı yox.

**-Bəlkə bu kövrəklik həm də ondan qaynaqlanır ki, aktyor çəkiliş prosesində artıq rejissor tərəfindən idarə olunduğunu daha dərindən dərk edir və bu dərketmə ona toxunur...**

-Xeyr, bu barədə heç vaxt düşünməmişəm. Əgər toxunursa, o zaman aktyor gedib elə sənət seçsin ki, heç kim tərəfindən idarə olunmasın. Amma mənim özüm tərəfindən bəzən bir balaca hikkə olur. Yəni anlamaq, hiss etmək üçün çoxlu sual verirəm. Bir az dirəniş göstərirəm. Bəlkə və sual xarakterli müzakirələrim çox olur.

Bildiyiniz kimi Stanislavskinin məşhur bir sözü olub: "İnanmıram!" Bu söz həm də onun rejissor fəndi idi. O mənada ki, bu sözdən aktyorun pafosuna, qeyri-təbii ifasına bir növ psixoloji təsir kimi istifadə edirdi.

**-Sizin aktyorluq təcrübənizdə belə hal olubmu ki, hansısa rejissor desin "inanmıram!" Və ya özünüz bunun fərqində olmusunuz?**

-İş prosesində, xüsusən də gənclik illərində mən uzun müddət Vaqif İbrahimoğlundan başqa heç bir rejissorla işləməmişəm. Vaqif müəllim də elə bir rejissor, pedaqoq idi ki, mənə birbaşa "inanmıram" sözünü deməyib. Sadəcə olaraq, tutaq ki, məşq prosesini dayandırıb deyirdi ki, burda belə yox, başqa cür olmalıdır. Bu istiqamətləndirmə, yönəltmə məqsədi ilə deyilən söz də təxminən elə "inanmıram" deməkdir.

"İnanmıram" sözü qeyd etdiyiniz kimi bir üsuldur. Mənimlə işləyən rejissorların heç biri mənə qarşı sərt münasibətdə olmayıblar. Əksinə, mənimlə çox ehtiyatla, mərhəmətlicəsinə izah edərək işləyiblər. İstər yaşlı nəsil rejissorları, istərsə də gənc nəsildə mənə qarşı inamsızlıq fikri baş qaldırıbsa da, bunun təzahürünü sərt şəkildə hiss etməmişəm.

**-Aktrisa kimi teatrdan uzaq qalmağınızın sizə yaqin ki, mənfi təsiri olur?**

-Aktyor teatrda mütləq işləməli və məşğul olmalıdır. Təbii ki, burada kiminlə işləmək, hansı əsərdə iştirak etmək də vacib amil hesab olunur. Əgər aktyor hər zaman bir əsər üzərində, obraz üzərində düşünürsə, onun çalarlarını axtarmağa çalışırsa, deməli, onun psixikası da daima məşq edir. Çünki aktyorun birinci aləti onun psixikasıdır, daha sonra fiziki bacarıqlar və digər amillər gəlir.

**-Fəxrəddin Manafovla teatrda daha çox tərəf müqabili olmusunuz. Səhv etmirəmsə, bir filmdə birlikdə ifa etmisiniz. O da qısa filmdir. Tammetrajlı filmdə necə, bir rolda onunla tərəf müqabili olmaq istərdiniz?**

-Bu barədə danışmaq bir az çətindir. Çünki hər şeydən əvvəl, ssenari olmalıdır ki, ona baxıb öz fikrimi bildirim. Bircə onu deyə bilərəm ki, Fəxrəddin müəllimlə işləmək inanılmaz dərəcədə maraqlıdır.

Onunla biz ilk dəfə 1990-cı ildə "Yuğ" teatrında "Heydər babaya salam" tamaşasında tərəf-müqabili olmuşuq. Və bu mənim teatrda ilk işim olub. İlk film işim olan "Otel otağı" filmində də elə Fəxrəddin Manafovla tərəf-müqabili olmuşam.

Tərəf-müqabili aktyor üçün çox böyük məna kəsb edir. Fəxrəddin müəllimlə tərəf müqabili olmaq hədsiz dərəcədə maraqlıdır. O, aktyor kimi ilk növbədə özünə qarşı çox məsuliyyətli insandır. Həmçinin çox həssasdır. Ondan qapanmaq, gizlənmək qeyri-mümkündür.

Tamaşa prosesində mətnin ən çox hissəsi onda olur. Artıq üçüncü, dördüncü məşqdə Fəxrəddin müəllim vərəqsiz məşq edir. Bu da ondan irəli gəlir ki, o, gecə-gündüz mətn üzərində işləyərək onu əxz edib.

Məşqə gecikmək, hazırlıqsız gəlmək, tamaşaya köklənə bilməmək onun ən acığı gələn hallardır. İlk növbədə özü bütün qaydalara riayət edir və qarşı tərəfdən də bunu tələb edir.

Əsl aktyor məhz bu cür olmalıdır. Mən hesab edirəm ki, Azərbaycan teatr məkanında Fəxrəddin müəllim kimi beş-on nəfər məsuliyyətli aktyor olsa, teatr prosesi xeyli inkişaf edər.

İyirmi yeddi il bundan əvvəl ilk dəfə onunla tərəf-müqabili olmuşam. Sonralar da bu imkan olub, yenə də olur. Yenə də arzusundayam ki, o, işləyən tamaşada mən də olum. Çünki onunla iş prosesində mən yalnız öyrənirəm, qazanıram. Çox böyük həsrətlə mən də siz deyən filmi gözləyirəm.

**-Aktrisa kimi həmişə formadasınız. Özünüzü təkrarlamırsınız. Belə formada qala bilmək üçün xüsusi reseptiniz var?**

-Təbii ki, aktrisanın özünün riayət etməyə məcbur olduğu prosedurlar vardır. Aktrisa olan şəxs formada qalmaq üçün lazım olan qaydalara imkanının yetdiyi qədər qeyri-şərtsiz əməl etməlidir.

**Samirə ƏŞRƏF**



**Ədəbiyyat qəzeti.- 2017.- 11 mart.- S. 21.**